BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 *Humanitar elmlər seriyası* 2006

# 1852-Cİ İL VERGİ QAYDASININ QUBA QƏZASINDA HƏYATA KEÇİRİLMƏSİ MƏSƏLƏLƏRİNƏ DAİR

**F.M.ƏLİYEVA**

*Bakı Dövlət Universiteti*

1852-ci il Vergi qaydasının Quba qəzasında həyata keçirilməsi məsələsi tarixşünaslığımızda tədqiq edilməyən mövzulardandır. Tədqiq edilən məqalədə mövzuya aid bəzi sujetlərə toxunulacaq. 3 cildlik «Azərbaycan tarixi»nin 1964-cü ildə nəşr edilmiş 2-ci cildində 1852-ci il yeni ödəniş qaydasının Quba qəzasında 1856-cı ildə tətbiq edilməsi tezisi öz əksini tapmışdır.[1] Halbuki yeni ödəniş qaydası Quba qəzasında yalnız 1873-cü ildə həyata keçirilmişdir.[2]

Quba xanlığı 1806-cı il oktyabrın 22-də Rusiya tərəfindən işğal edilir, işğaldan sonra xanlıq müstəqil bir siyasi qurum kimi ləğv olunur və onun yerində Quba qəzası yaradılır.[3] Qəza inzibati cəhətcə əvvəlcə Dağıstan Hərbi dairəsinə,[4] 1846-cı ildən Dərbənd quberniyasına[5] və nəhayət 1860-cı ildən Bakı quberniyasının tərkibinə daxil edilir.[6] Quba qəzasının ərazisi ilk dövrlərdə xanlıq zamanında olduğu kimi 10 mahal, 1 dairədən ibarət idi. Lakin XIX əsrin 20-ci illərində Cənubi Dağıstanın 4 icması – Axtı, Altiparın, Doqquzparın və Tarcalı icmaları Quba qəzasına qatılır[7] və beləliklə, Quba qəzası Şimali Azərbaycanın iri qəzalarından birinə çevrilir. Kaspi Vilayəti Əmlak Palatasının 1846-cı il üzrə hesabatına görə Quba qəzasında 87,633 nəfər sakin vardı ki, onların da 82,970 nəfəri kəndlilər idi. Bütün Azərbaycanda olduğu kimi bu qəzada da kəndlilər xəzinə və sahibkar kəndlilərinə bölünmüşdülər, özü də kəndlilərin əksəriyyətini xəzinə kəndliləri təşkil edirdilər: 73,928 nəfər.[8]

Rusiya işğalından sonra Zaqafqaziyada mövcud olan Vergi sistemində ciddi dəyişiklik edilmir, köhnə sistem əsasən saxlanılırdı. Azərbaycan kəndliləri xanlıqlar dövründə feodal rentasını 3 formada – məhsul, pul, ödəmə formalarında yerinə yetirsələr də, əsas renta – məhsul

---

1 Azərbaycan tarixi. 3 cilddə, 2-ci cild, B.,1964, səh.96.

2 И.Л.Бахмадзе. Податное обложение государственных крестьян Закавказского края. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. Т.1, часть III, Тифлис, 1887, səh.126

3 K.Şükürov. Azərbaycan tarixi, II hissə. Ən qədim zamanlardan bizim günlərədək: Dövrlər, hadisələr, sinxronlaşdırılmış cədvəllər. B., 1998, səh.259

4 Yenə orada, səh.266,269

5 Yenə orada, səh.271

6 Yenə orada, səh.274

7 А.С.Сумбатзаде. Кубинское восстание 1837 года. Б., 1967, səh.11-12

8 Gürcüstan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi, fond 4, siyahı 8, iş vahidi 99, vərəqə 2(arxa)-3

rentası idi.[1] XIX əsrin 30-cu illərində Qafqazdakı rəsmi hökumət dairələri mövcud vergi sistemində dəyişiklik etmə, dövlət kəndlilərindən məhsulla alınan bütün vergilərin vahid bir pul vergisi ilə əvəz edilməsi qərarına gəlirlər. Mərkəzi dövlət orqanları bu təklifi məqbul sayırlar və artıq 1844-cü il Gürcü-İmeriya quberniyasında yeni ödəniş sisteminə keçilir. Azərbaycanda isə yeni ödəniş qaydasına 1852-ci ildən keçmək nəzərdə tutulurdu.[2] Tarixi ədəbiyyatda yeni ödəniş qaydası «1852-ci il vergi islahatı» və ya son zamanlar vətəndaşlıq hüququ qazanmış «1852-ci il yeni vergi qaydası» adı ilə adlanır.[3]

1852-ci il Vergi islahatına görə dövlət kəndlilərinin vergiləri iki yerə bölünməli idi: 1) birincisi – birbaşa vergilər; 2) ikincisi – torpaq bəhrəsi. Birbaşa vergilər bütün kənd vergi ödənclərі üçün eyni məbləğdə müəyyən edilməli idisə, torpaq bəhrəsi pay torpağının ölçüsü, keyfiyyəti, əksinə yararlığı, kəndlinin təsərrüfat fəaliyyəti nəzərə alınmaqla hesablanırdı və neçə dərəcəyə bölünürdü.[4]

Yeni Vergi ödənişi qaydası adi vergi islahatı çərçivəsindən xeyli kənara çıxırdı, çünki islahat bu və ya başqa dərəcədə kəndlilərin pay torpağı ilə təminatı məsələlərinə də toxunurdu, bir növ dövlət kəndində «üstüörtülü şəkildə torpaq» islahatı idi.[5]

Hər bir kəndlinin iqtisadi durumu, vəziyyəti, gəliri, vergiləri ödəmək və mükəlləfiyyətləri yerinə yetirmək imkanı ilk növbədə onun əksinə yararlı kifayət qədər pay torpağı ilə təmin edilməsi dərəcəsindən çox asılı idi. Bu danılmaz həqiqəti Qafqazdakı rəsmi dairələr yaxşı başa düşürdülər və odur ki, islahat layihəsini hazırlayan məmurlar və komissiyalar bu məsələyə xüsusi diqqət yetirirdilər.

Yeni ödəniş sisteminə keçirilməsinə hazırlıq işində əsas yeri kəndlilərin dəqiq sayının müəyyən edilməsi, onların iqtisadi vəziyyətinin və vergi ödənişlərinin ətraflı tədqiqi olmalı idi. Bu məqsədlə xüsusi araşdırmalar aparmaq üçün komissiyalar yaradılır, təftişlər aparılır. 1849-cu ildə Quba qəzası üzrə də islahat komissiyası yaradılır.[6]

Kaspi Vilayəti Dövlət Əmlak Palatasının 1844-cü il üzrə hesabatına görə Quba qəzasında kəndlilərin pay torpaqlarının orta həcmi 1,25 desyatinə bərabər olmuşdur ki, bu da Azərbaycan üzrə ən aşağı göstərici idi.[7] Təsadüfi deyildir ki, bu faktı yeni islahatın hazırlanması ilə məşğul olan komissiyalar və məmurlar dəfələrlə qeyd etmişdilər.

1849-cu ildə Dövlət Əmlak Nazirliyinin yüksək rütbəli məmuru Y.A.Qaqemeysterin sədrliyi ilə Şamaxı və Dərbənd quberniya komissiyaları yaradılır. Bu komissiyaların qarşısında duran əsas vəzifə tətbiq ediləcək yeni vergi ödəmələrinin dərəcələrini müəyyənləşdirmək, bu və ya digər kənd sakinlərinin bu dərəcələrdən hansına aid ediləcəklərini qərarlaşdırmaq idi.[8] Y.A.Qaqemeysterə təqdimatı hazırlamaqda yardım məq-

---

[1] M.M.Gülmalıyev. XVIII əsrin son rübü-XIX əsrin I yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strukturu. B., 1989, səh.209
[2] Azərbaycan tarixi. 3 cilddə, 2-ci cild, B.,1964, səh.96
[3] Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. B.,1996, səh.668
[4] Yenə orada
[5] М.М.Эфендиев. К вопросу о форме феодальной ренты у государственных крестьян Азербайджана в 50-х годов XIX в., Azərb.SSR EA Xəbərləri, B., 1956, № 6, səh.150
[6] M.M.Gülmalıyev Göstərilən əsər, səh.214
[7] Rusiya Federasiyası SFMDTA, fond 1268, iş vahidi 853, vərəqə 47
[8] М.М.Эфендиев. К вопросу о форме феодальной ренты у государственных крестьян Азербайджана в 50-х годов XIX в., Azərb.SSR EA Xəbərləri, B., 1956, № 6, səh.131

sədilə zemstvo polisi və Təsərrüfat İdarəsinin məmurları təhкim edilmişdilər. Komissiya üzvləri кəndlilərin maddi vəziyyəti ilə yaxından tanış olmaq üçün кəndlilərin əкin sahələrini,həyət-bacalarını, təsərrüfatlarını, istifadə etdiкləri otlaq və qışlaqları gəzməli idilər кi, onların üzərinə qoyulacaq vergilərin həcmini öz şəxsi mülahizələri ilə əsaslandıra bilsinlər.[1] Y.A.Qaqemeyster 1850-ci ilin yayında öz qeydlərini Dərbənd quberniyası rəhbərliyinə təqdim edir. Y.A.Qaqemeyster Quba qəzası кəndlilərinin torpağa кəsкin ehtiyacını nəzərə alaraq otlaq кimi icarəyə verilən xəzinə torpaqlarının кəndlilər arasında paylanmasını məsləhət bilmişdi.[2]

Quba qəzasının yeni ödəniş qaydasına bütün Şimali Azərbaycanda olduğu кimi, 1852-ci ildə кeçirilməsi nəzərdə tutulmuşdu.[3] Laкin islahatın əməli olaraq həyata кeçirilməsi zamanı, məlum olur кi, islahata hazırlığın gedişində görülən işlər qənaətbəxş olmamışdır, belə кi, qəza əhalisinin sayı haqqında rəsmi siyahılarda göstərilən rəqəmlərlə vergi vərəqələrindəкi rəqəmlər arasında böyüк uyğunsuzluq var: Vergi кomissiyasının hazırladığı sənədlərdə məhsul vergisinin pulla eкvivalenti 72, 280 manat müəyyən edilmişdisə, Priкaspi vilayətinin Mülкi İşlər üzrə rəisi кnyaz Arqutinsкi-Dolqoruкi кəndli ailəsinin 1849-1850-ci illər siyahıyaalınma materiallarına əsasən bu məbləği 82,722 71 qəpiк müəyyən etmişdi. Buna görə də o, vergi кomissiyasının müəyyən etdiyi dərəcələrə müvafiq olaraq xəzinədən кəndli ailələri üzərinə 1 manat, sahibкar кəndliləri üzərinə isə 50 qəpiк həcmində əlavə vergi qoyulmasını lazım bilir.[4] Vergi кomissiyası ilə кnyaz Arqutinsкi-Dolqoruкinin təкlifləri arasındaкı fərqlərin səbəblərini aydınlaşdırmaq üçün Quba qəzası üzrə əlavə məlumatlar toplamaq qərara alınır. Laкin кnyaz Arqutinsкi-Dolqoruкi 12 may 1853-cü ildə Quba qəzasında yerli şəraitin müstəsnalığını nəzərə alaraq кöhnə vergi sisteminin saxlanılması məsələsini Qafqaz canişini кnyaz Voronsov-Daşкovun qarşısında qaldırdı.[5]

Quba qəzasında Yeni Vergi ödənişi qaydasına кeçid ərəfəsində siyasi vəziyyət son dərəcə gərgin idi. Hərbi nazir qraf A.S.Çernişev 1850-ci il deкabrın 12-də I Niкolaya ünvanladığı məкtubda Quba qəzasındaкı vəziyyət haqda belə məlumat vermişdi: «Dərbənd quberniyasının Quba qəzasında müridizmin təbligi ilə məşğul olan şəxslərin başçısı, həmin qəzanın Kəndov кənd saкini Cəbrayıl Mustafa oğludur. Yerli haкimiyyət dairələri müridizmin yayılmasının qarşısını almaq üçün Cəbrayıl və onun 28 həmкarını həbs etmişlər. Həbs olunanlar qəzanın Kəndov, Qalacı, Zahıc, Talış, Küneh, Əmsar, Pirallahı və Zayti кəndinin saкinləridir. I Niкolay həbs edilmiş Quba saкinlərinin cəzalandırılması və sürgünə göndərilməsi məsələsi ilə özü şəxsən maraqlanmışdı, belə кi, I Niкolayın 10 yanvar 1851-ci il tarixli sərəncamı ilə həbs edilmiş Quba saкinləri müsəlmanların yaşamadıqları Rusiya qəzalarına –Poltava, Megilev və Smolinsкiyə sürğün edilirlər.[6]

Məlum olduğu кimi, XIX əsrin 40-cı illərinin sonu – 50-ci illərinin

---

[1] İ.L.Baxmadze. Göstərilən əsər. səh.110
[2] Yenə orada
[3] Yenə orada, səh.116
[4] Yenə orada
[5] Колониальная политика Российского царизма в Азербайджане 40-60-х годов XIX века. Часть II, М-Л., 1937, səh.304
[6] F.M.Əliyeva. XIX əsrin 40-cı illərində Azərbaycanda müridizmin yayılmasına dair. // Tarix və onun problemləri. B., 2000, səh.49-50

əvvəllərində Quba qəzasının şimalında yerləşən Dağıstanda Rusiya imperiyasının işğalçılıq siyasəti əleyhinə xalq azadlıq mübarizəsi gedirdi. Müridizm bayrağı altında gedən bu mübarizə Quba qəzasında yeni ödəniş qaydasına keçilməsi işini mürəkkəbləşdirə bilərdi. Knyaz Arqutinski-Dolqoruki 1853-cü ildə bunu nəzərə alaraq Qafqaz canişini Vorontsov-Daşkov qarşısında Qubada köhnə vergi sisteminin saxlanılması məsələsini qaldırır: «Şübhə yoxdur ki, Quba qəzası əhalisi hökumətin iradəsinə tabe olacaq və yeniliyi qəbul edəcəklər. Amma qəza ilə qonşu olan dağlılar onlarda da gec və ya tez belə bir tədbirin tətbiq ediləcəyinə inam yarada bilər, onlarsa vergidən qorxan kimi heç nədən qorxmurlar, çünki onların ölkəsi son dərəcə yoxsuldur, burada heç bir sənaye müəssisəsi yoxdur».[1]

Knyaz Arqutinski-Dolqoruki Rusiya ilə Türkiyə arasında münasibətlərin gərginləşdiyi bir vaxtda Quba qəzasında islahatın keçirilməsinin təxirə salınması təklifini Prikaspi Vilayəti qoşunlarının komandanı, general-leytenant knyaz Orbeliani də müdafiə edir. Quba qəzasında yeni Vergi qaydasına keçirilməməsi məsələsinə Qafqazın Mülki İşlər üzrə rəisi general Pead da tərəfdar çıxır. Bu təklifləri nəzərə alan hərbi nazir knyaz A.S.Çernişev I Nikolaya göndərdiyi 21 iyul 1854-cü il tarixli məruzəsində çarın özünün hərbi və ya siyasi vəziyyətə görə islahatın keçirilməsində çətinlik və ya təhlükə yarandıqda tətbiq edilməməsinə icazə verdiyinə görə razılıq verdiyini bildirir.[2]

Beləliklə, 1852-ci il ödəniş qaydasının Quba qəzasında həyata keçirilməsi yaranmış beynəlxalq vəziyyətlə əlaqədar gündəlikdən çıxarılır. Krım müharibəsi başlandıqdan sonra I Nikolayın fərmanı ilə Quba qəzasında yeni ödəniş qaydasına keçirilməsi qeyri-müəyyən vaxta qədər təxirə salınır.[3]

Krım müharibəsi başa çatdıqdan sonra Quba qəzasında yeni vergi ödənişi sisteminə keçilməsi məsələsi yenidən qaldırılır. Prikaspi ölkəsi qoşunlarının komandanı knyaz Orbelianidən bu problemin həlli yolları haqqında fikrini bildirmək tələb olunur. Knyaz Orbeliani cavab arayışında aşağıdakı təklifi irəli sürür: kəndlilər üzərinə yeni vergi ödənişi qaydasına uyğun olaraq vergilər təyin etməzdən əvvəl mütləq qəzada kəndlilərə paylanacaq boş torpaqların həcmini dəqiq müəyyənləşdirmək lazımdır. Lakin knyaz Orbelianinin bu təklifi cavabsız qalır. Knyaz Orbelianini əvəz edən baron Vrangel Quba qəzasında kəndlilərin böyük əksəriyyətinin həm əkin sahələrinə kəskin ehtiyaclarını, həm də həddindən artıq vergi ödədiklərindən əziyyət çəkdiklərinə görə çıxılmaz vəziyyətlərini nəzərə alaraq işin sürətləndirilməsi üçün yüksək səviyyəli komissiyanın yaradılması haqda sərəncam verir. Dərbənd quberniya prokurorunun sədrliyi ilə yaradılan bu komissiya, torpağa böyük ehtiyacı olan kəndlər, bu kəndlərə paylanmalı olan boş torpaqların həcmi haqda dəqiq məlumat toplamalı idi. Komissiya işini yalnız 1858-ci ildə başa çatdıra bilir. Komissiyanın qənaətinə görə aran yerlərdə yaşayan kəndlilər 20 desyatin, dağlıq yerlərdə yaşayan kəndlilər isə 30 desyatin həcmində torpaqla təmin olunmalı idilər. Komissiya kəndlilərin kifayət qədər pay torpağı ilə təmin edilmələri nəticəsində iqtisadi vəziyyətlərinin yaxşılaş-

---

[1] Колониальная политика Российского.., səh.104
[2] Yenə orada
[3] İ.L.Baxmadze. Göstərilən əsər. səh.117

dırılmasını əsas götürərək onların üzərinə yeni ödəniş qaydasına müvafiq vergilər müəyyənləşdirir.[1]

1860-cı ildə Quba qəzası Bakı quberniyasının tərkibinə daxil edilir və odur ki, islahat məsələsi indi bu quberniyada həll olunmalı idi. Bakı hərbi qubernatoru general-leytenant Kolyubyakin əvvəlki komissiyanın işini etibarlı hesab etmədiyindən kəndlilərin iqtisadi vəziyyəti haqda dəqiq məlumat əldə etmək üçün aqronom Şanşiyevi qəzaya ezam edir.[2]

Bakı qubernatoru general-leytenant Kolyubyakin aqronom Şanşiyevin hazırladığı hesabata istinad edərək Qafqazın ali dairələrinə ünvanladığı rəsmi məlumatda bildirirdi ki, dağlıq yerlərdə kəndlilərə ayrılan torpaqlar əkin üçün yararsız olduğundan onların maddi vəziyyətinin yaxşılaşmasına təsir göstərə bilməz. Aran yerlərində paylanan torpaqların istifadəsi yalnız süni suvarma vasitəsilə mümkün olduğundan və süvarma suyunun bahalığı ucbatından çəkilən xərcin müqabilində alınan məhsulun başa gəlməsi kəndlilərin iqtisadi vəziyyətini yaxşılaşdırmaq əvəzinə daha da pisləşdirir. Bakı hərbi qubernatorunun Qafqaz canişinliyinin Baş İdarəsinə ünvanladığı 26 noyabr 1865-ci il tarixli raportda Quba qəzasında yeni vergi ödənişi qaydasına torpağa kəskin ehtiyacı olanların kifayət qədər torpaqla təmin edilməyincə tətbiq edilməsini qeyri-məqbul saydığını bildirirdi.[3]

Beləliklə, Quba qəzasında 1852-ci il qaydasına keçilməsi məsələsi neçənci dəfə təxirə salınır, hər dəfə işə yenidən başlamaq lazım gəlirdi.

Qafqaz Canişinliyinin Baş İdarəsi 1871-ci ildə Quba qəzası kənd cəmiyyətlərinin istər məhsul, istərsə də pulla ödədikləri vergilər və həmçinin kənd təsərrüfatı məhsullarının qiymətləri haqda ətraflı məlumat toplamaq göstərişi verir. Qəza rəisinin təqdim etdiyi arayışa görə 16.613 tüstü ildə aşağıdakı həcmdə vergi ödəyirmiş:

| | |
|---|---|
| Pul vergisi | - 26.415 manat |
| Buğda üçün | -24.715 manat 98 qəpik |
| Arpa üçün | -11.976 manat 35 qəpik |
| İpək üçün | -10.042 manat 15 qəpik |
| Cəmi | - 73.151manat 48 qəpik |

Qəza rəisi bu məlumata yeni ödəniş sisteminə keçiləcəyi halda toplanmalı olan məbləğin miqdarı haqda məlumatı da əlavə etmişdi: 80.810 manat.[4]

Zaqafqaziya Xəzinə Palatası Bakı hərbi qubernatoru general-leytenant Kolyubyakinin təklifini qəbul edir və nəhayət Qafqaz canişini 1872-ci il mayın 19-da Quba qəzasında köhnə ödəniş sisteminin ləğvi və yeni ödəniş sisteminə keçilməsi haqda sərəncam verir. Həmin sərəncam II Aleksandr tərəfindən təsdiq edilir.[5] Lakin bu dəfə də islahatın həyata keçirilməsi müşgül məsələyə çevrilir. Artıq qəti həll olunmuş bu məsələyə yeni təyin edilmiş Bakı qubernatoru S.A.Staroselski öz ciddi iradını bildirir. Onun qənaətinə görə, qəza əhalisi yeni ödəniş sisteminə keçilməsini narazılıqla qarşılayacaq, özü də əsas narazılıqlar inəkçiliklə məşğul olan kəndlərdə baş verəcək, çünki yeni ödəniş qaydasına uyğun olaraq bu kəndlərdə hər bir tüstüyə ən yüksək vergi dərəcəsi – 17 və hətta 21 manat ödəniş hesablanıb. Vergi dərəcəsi hesablanarkən komis-

---

1 İ.L.Baxmadze. Göstərilən əsər. səh.121
2 Yenə orada
3 Yenə orada
4 Yenə orada, səh.123
5 Yenə orada, səh.124

siya üzvləri ciddi bir səhvə yol vermişlər, belə кi, onlar hesab üçün ən məhsuldar illəri – 1865-1867-ci illəri əsas götürüblər. Laкin məlumdur кi, 1865-1867-ci illər кimi məhsuldar illər həmişə olmur, bəzən bütün 10 ildə bir belə il olmur. Bundan əlavə son dövrdə qəzada ipəкqurdu xəstəliyinin yayılması üzündən məhsuldarlıq xeyli azalmışdır. Məhz bu səbəblərə görə Baкı qubernatoru general-mayor S.A.Staroselsкi yeni vergi ödənişi tarifinin məqbul sayılmasını şübhə altına alır.[1]

Baкı qubernatoru general mayor S.A.Staroselsкi Quba qəzasında vergilərin tənzimlənməsi məsələsi üzrə öz mülahizələrini Baş İdarə Şurasına bildirir. Qubernator yeddi ödənc dərəcəsini müəyyən edir: 2,3,4,5,6,7 və 8 manat, özü də xəzinə кəndliləri üçün – 3 manatdan 8 manata qədər, bəy кəndliləri üçün isə 2 manatdan 4 manata qədər. Baş İdarə Şurası S.A.Staroselsкinin mülahizələrini qəbul edir.[2]

27 mart 1873-cü ildə II Aleкsandr Quba qəzasında yeni ödəniş qaydasına кeçilməsi haqda fərmanı imzalayır.[3] Beləliкlə, Quba qəzasında 1852-ci il yeni ödəniş qaydasına кeçilməsi yalnız 21 ildən sonra baş tutur.

## К ВОПРОСУ О ПРОВЕДЕНИИ ПОДАТНОЙ РЕФОРМЫ 1852 ГОДА В КУБИНСКОМ УЕЗДЕ

**Ф.М.АЛИЕВА**

**РЕЗЮМЕ**

Податная реформа 1852 года в Кубинском уезде была проведена намного позже, в 1873 году. В статье раскрыты причины принятия и основные направления осуществления реформы.

В научной статье так же опровергается устоявшаяся версия о том, что податная реформа в Кубинском уезде была проведена в 1856 году.

## ABOUT QUESTION OF SPENDING UP TAX REFORM IN KUBA REGION OF 1852 YEAR

**F.M.ALIYEVA**

**SUMMARY**

The tax reforms in Kuba region of 1852 year was spent muchlater l.e.t. in 1873. In article was investigated reasons if spending and base direction of carrying and reforms.

In sciencies article also reluted steady nversion that the tax reforms was carried out in Kuba region in t856 year.

[1] İ.L.Baxmadze. Göstərilən əsər. səh.125
[2] Yenə orada
[3] Yenə orada, səh.126